## Şəfəq NASİR



*Hörmətli Şəfəq Nasir!*

*Sizi - tanınmış yazıçı, publisist və ədəbiyyatşünas alimi yubiley yaşınız münasibətilə təbrik edirik.*

*Siz 25 iyun 1954-cü ildə Beyləqan rayonunda müəllim ailəsində doğulmusunuz. 1971-ci ildə orta məktəbi, 1976-cı ildə isə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsini bitirmisiniz. Əmək fəaliyyətinə uzun illər respublikada uşaqlar, yeniyetmə və gənclər üçün kitablar nəşr edən "Gənclik" nəşriyyatında başlamış, redaktor, şöbə müdiri vəzifələrində çalışmısınız. 1992-1994-cü illərdə "Təhsil" nəşriyyatında baş redaktor vəzifəsində işləmisiniz.*

*1995-2015-ci illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyində Baş məsləhətçi, Sənədlərlə iş və protokol şöbəsinin müdiri, Media və ictimai əlaqələr şöbəsində böyük məsləhətçi, "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının xəbərləri"nin redaksiya qrupunda qrup rəhbəri - redaktor, Media və ictimai əlaqələr şöbəsində Baş məsləhətçi vəzifələrində işləmisiniz.*

*2016-2021-ci illərdə "Respublika" qəzetində məsul katib, Humanitar siyasət redaksiyasının müdiri vəzifəsində işləmisiniz.*

*Uzun illərdir Azərbaycan jurnalistikasının bir qolu olan İrəvan mətbuatının tədqiqi sahəsində elmi araşdırmalarla məşğulsunuz. İrəvanda ilk anadilli mətbuatımız sayılan "Lək-lək" satirik jurnalını (1914) və ədəbi, siyasi, tarixi, fənni aspektdən fəaliyyət göstərmiş "Bürhani-həqiqət" (1917) dərgisini tədqiq etmiş, bu mövzuda vaxtaşırı qələmə aldığınız məqalələrinizi ədəbi ictimaiyyətə təqdim etmisiniz. Hər iki jurnalı transfoneliterasiya edərək, Ön söz, lüğətlə kitab şəklində nəşr etdirmisiniz. Eləcə də İrəvanın maarifpərvər ziyalılarının həyat və yaradıcılığına, ictimai taleyinə, dini-mədəni abidələrinə sözün qüdrəti ilə ədəbi (əbədi) ömür qazandıran elmi-tədqiqat xarakterli məqalələrinizi işıq üzünə çıxarmısınız.*

*Müxtəlif vaxtlarda "Yeni səslər", "Vətən səsi", "Şahidlər" kimi almanaxlarda hekayələriniz, ictimai məzmunlu publisistik məqalələriniz nəşr olunub. 10-dan çox kitabın, o cümlədən, "Gecə yağışı", "Beyləqanın güllü yazı", "Ciddi söhbət", "Bir ömrün üçbucağı", "Könüllərə şəfəq payı", "Sözümdən ocaq çatdım" (Tehran) kimi bədii, publisistik əsərlərin, "Məmmədəli Nasir", "Bürhani-həqiqət", "Lək-lək" kimi elmi tədqiqat əsərlərinin müəllifisiniz. Bir çox xarici ölkələrin dərgilərində elmi, publisistik məqalələriniz nəşr olunub. Filologiya üzrə fəlsəfə doktorusunuz.*

*Azərbaycan Jurnalistlər (1985) və Yazıçılar Birliyinin (1998) üzvüsünüz. Müxtəlif vaxtlarda Jurnalistlər Birliyinin "Həsən bəy Zərdabi" mükafatı (1998), "Jurnalistika sahəsindəki araşdırmalara və "Məmmədəli Nasir" monoqrafiyasına görə" Azərbaycan Mətbuat Şurasının "Diplom"u (2014) ilə təltif edilmisiniz. Prezident təqaüdçüsü (2019), Rəsul Rza beynəlxalq mükafatının (2024) laureatısınız.*

*Hörmətli Şəfəq Nasir, bir daha doğum gününüzü təbrik edir, sizə cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.*

**Azərbaycan Yazıçılar Birliyi**